# Bakı Enerji Həftəsindən COP29-a

## Neft-qaz sektorunda böyük uğurları olan Azərbaycan "yaşıl enerji"yə keçidi də sürətləndirir

Azərbaycan qlobal enerji təhlükəsizliyində başlıca rol oynayan ölkələrdəndir. 1994-cü ildən - "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 30 illik dövr ərzində respublikamızın bu sahədə həyata keçirdiyi siyasət regionda və Avropada enerji təhlükəsizliyinə böyük töhfələr verib. Azərbaycanın enerji siyasəti dünyanın tanınmış şirkətlərini bir araya gətirib, onların əməkdaşlığına geniş meydan açıb.




### Ölkəmizin uğurları beynəlxalq səviyyədə təqdir olunur

Təsadüfi deyil ki, bu gün ölkəmiz Avropanın enerji təhlükəsizliyində əsas yerlərdən birini tutur. Azərbaycan qazını idxal edən 8 ölkədən 6-sı Avropa ölkəsidir. Qarşıda bu təchizatın coğrafiyasının daha da genişləndirilməsi planlaşdırılır.

İyunun 4-6-da keçirilən Bakı Enerji Həftəsinə yüksək beynəlxalq maraq da Azərbaycanın dünyanın enerji təhlükəsizliyində başlıca rola malik ölkələrdən olduğunu göstərdi.

Hazırda Azərbaycanın enerji sahəsində prioritetlərindən biri "yaşıl enerji"yə keçiddir. Son illərdə Azərbaycanda bu sahədə görülən işlər beynəlxalq səviyyədə təqdir olunur. Dünyanın bu qlobal çağırışına fəal qoşulan və öz mütərəqqi təşəbbüsləri ilə ona əməli işləri ilə dəstək verən Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibi seçilməsində ölkəmizin bu sahədəki uğurları mühüm rol oynadı.

### Azərbaycan beynəlxalq ictimaiyyəti səfərbər edir

"İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis etmişik", - deyə 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində Prezident İlham Əliyev bildirdi. Dövlət başçısı vurğuladı ki, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə, eyni zamanda beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq: "Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik".

Bütün bunlar göstərir ki, Azərbaycan qlobal enerji təhlükəsizliyi ilə bağlı yeni təşəbbüslər, innovativ yanaşmalar ortaya qoymaqla yanaşı, iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması üçün beynəlxalq ictimaiyyəti də bu yöndə səfərbər edir.

Ümumiyyətlə, Azərbaycanın COP29 gündəliyi yeni çağırışlarla, ümumilikdə dünyanın qlobal təhlükəsizliyinə töhfə verəcək mühüm təşəbbüslərlə zəngindir. Eyni zamanda iştirakçılarının sayı baxımından dünyanın ən böyük tədbiri olan COP29-a evsahibliyi etməsi ölkəmizin imkanlarının təqdimatı və potensialının nümayişi baxımından da mühüm hadisə olacaq.

### COP29 ölkəmizin təşəbbüslərinə böyük töhfələr verəcək

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşib. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub.

Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması başlıca yer tutur. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Azad edilmiş ərazilərdə "yaşıl enerji" üçün böyük potensial var. Bakı Enerji Həftəsinin açılışında bu barədə danışan Prezident İlham Əliyev qeyd etdi ki, işğaldan azad edilən ərazilərdə 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. Yaxın illərdə bu rəqəm 500 meqavata çatacaq. "Beləliklə, bərpa olunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir", - deyə Prezident bildirdi.

Yekdilliklə COP29-a ev sahibi seçilən Azərbaycanın "yaşıl enerji"yə keçidlə bağlı həyata keçirdiyi işlər, iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması üçün hərtərəfli fəaliyyəti göz önündədir. Respublikamız hər zaman beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü olaraq bu istiqamətdə görülən işlərə öz töhfəsini verib.

Hazırda ölkəmiz sözün, əsl mənasında, dünyanın yaşıllaşması naminə bütün gücünü səfərbər edib və bu amal ətrafında ölkələri birləşdirmək üçün effektiv səylər göstərir. COP29 ölkəmizin bu istiqamətdəki fəaliyyətinə və təşəbbüslərinə böyük töhfələr verəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.5.